QANUN № 06 (380), 2026, s. 139-144

Həmidli Fərman Fəzail oğlu,
Bakı Dövlət Universitetinin Əmək və ekologiya hüququ kafedrasının "Təbii ehtiyatlar hüququ; aqrar hüququ; ekologiya hüququ" ixtisası üzrə doktorantı
E-mail: ferman.hemid@gmail.com

UOT 349.6
DOI: https://doi.org/10.30546/2218-9130.060.2026.0165

EKOLOJİ HÜQUQ POZUNTULARINA GÖRƏ İNZİBATİ MƏSULİYYƏT: HÜQUQİ TƏBİƏTİ, XÜSUSİYYƏTLƏRİ VƏ TƏKMİLLƏŞDİRİLMƏ İSTİQAMƏTLƏRİ

Açar sözlər: *ekoloji hüquq pozuntusu, inzibati məsuliyyət, ətraf mühitin hüquqi mühafizəsi, Orxus Konvensiyası.*

Ключевые слова: *экологическое правонарушение, административная ответственность, правовая охрана окружающей среды, Орхусская конвенция.*

Keywords: *environmental law violation, administrative liability, legal protection of the environment, Aarhus Convention.*

Giriş

Müasir dövrdə ətraf mühitin mühafizəsi məsələsi qlobal əhəmiyyət kəsb edən prioritet istiqamətlərdən birinə çevrilmişdir. Sürətlə artan istehsal həcmi, urbanizasiya prosesi və təbii ehtiyatların həddindən artıq istismarı ekoloji tarazlığı ciddi şəkildə pozmuşdur. Bu reallıq bütün dünya dövlətlərini, o cümlədən Azərbaycan Respublikasını ətraf mühitin hüquqi müdafiəsini daha effektiv hüquqi mexanizmlərlə təmin etməyə vadar etmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasının 39-cu maddəsi hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququnu konstitusion norma kimi möhkəmləndirir, dövlətə isə bu hüququn qorunmasını təmin etmək öhdəliyi verir [1]. Konstitusiyanın 71-ci maddəsi ətraf mühitin mühafizəsini hər kəsin vəzifəsi kimi müəyyən edir. Həmin konstitusion normaları həyata keçirmək məqsədilə ölkəmizdə geniş ekoloji qanunvericilik bazası formalaşdırılmışdır.

Ekoloji hüquq pozuntularına görə hüquqi məsuliyyətin müxtəlif növləri – cinayət, mülki, intizam və inzibati məsuliyyət mövcuddur. Bunların arasında inzibati məsuliyyət özünün operativliyi, subyektlərinin geniş dairəsi və sanksiyalarının müxtəlifliyi baxımından xüsusi yer tutur. İnzibati məsuliyyət tənbehedici funksiya ilə yanaşı, güclü profilaktik funksiyanı da yerinə yetirir ki, bu da onun ekoloji hüquqda əhəmiyyətini daha da artırır.

Bu məqalədə ekoloji inzibati məsuliyyətin anlayışı, hüquqi təbiəti, subyektləri, obyektləri, sanksiya sistemi, normativ hüquqi bazası, digər məsuliyyət növlərindən fərqləndirilməsi, tənzimlənmə məsələləri və beynəlxalq-hüquqi çərçivə ardıcıl şəkildə araşdırılır. Tədqiqat Azərbaycan Respublikasının qanunvericilik aktlarına, hüquq doktrinasına, müqayisəli hüquq metoduna və beynəlxalq standartlara əsaslanır.

İnzibati məsuliyyətin ümumi anlayışı və hüquqi təbiəti:

Ən ümumi mənada inzibati məsuliyyət dedikdə, inzibati-hüquqi sanksiyaların reallaşdı-

rılması, səlahiyyətli orqan və ya vəzifəli şəxs tərəfindən hüquq pozuntusu törətmiş fiziki və hüquqi şəxslərə, o cümlədən vəzifəli şəxslərə qarşı inzibati tənbehlərin tətbiq edilməsi başa düşülür. Müəlliflərdən A.V.İlyuşin qeyd edir ki, inzibati məsuliyyət qanunçuluğun və intizamın möhkəmləndirilməsində, idarəçiliyin səmərəliliyinin artırılmasında nəzəri və praktiki cəhətdən mühüm əhəmiyyət kəsb edən və ən kəskin mübahisə doğuran məsələlərdən biridir [2]. Y.M.Kozlov isə tədqiqatında göstərir ki, inzibati məsuliyyətin mühüm xüsusiyyəti onun maddi və prosessual hüquq münasibətlərinin məcmusu kimi nəzərdən keçirilməsinin mümkün olmasıdır [3].

İnzibati məsuliyyət dövlət məcburiyyətinin təzahür formalarından biridir və bu məcburiyyət səlahiyyətli dövlət orqanlarının fəaliyyəti vasitəsilə reallaşdırılır. Məsuliyyət onun hədlərinin hüquqi tənzimlənməsi, konkret inzibati tənbehlərin reallaşdırılmasının əsaslarının, məzmununun və prosessual formalarının normativ qaydada müəyyən edilməsi əsasında tətbiq olunur.

İnzibati məsuliyyət təqsirkar şəxsin dözməyə borclu olduğu müəyyən məhrumiyyətlərlə xarakterizə olunur. Hüquqpozucusunun müəyyən məhrumiyyətlərə məruz qalması məsuliyyətin obyektiv xüsusiyyətidir. Hüquq pozuntularının sahəvi xarakterindən asılı olmayaraq, inzibati məsuliyyət tədbirlərinin tətbiqi hüquq pozucusunun müəyyən məhrumiyyətlərə, məsələn azadlığının məhdudlaşdırılmasına və ya maddi xarakterli sanksiyalara məruz qalmasına səbəb olur. Bu, hüquqpozucusuna törətdiyi əmələ görə dövlət adından verilən yekun hüquqi qiymətdir.

"Dövlət məcburiyyəti" daha geniş anlayışdır. O, ciddi şəkildə müəyyən edilmiş prosessual formada ifadə olunan hüquqi (inzibati) məsuliyyətdən fərqli olaraq, hüquq qaydasının təmin edilməsinə yönəlmiş, müxtəlif prosedur və mexanizmlər vasitəsilə reallaşdırılan dövlətin və onun orqanlarının bütün fəaliyyətlərini, o cümlədən konstitusiya, mülki, cinayət məsuliyyəti tədbirlərini əhatə edir. Beləliklə, inzibati məsuliyyət dövlət məcburiyyətinin xüsusi, normativ cəhətdən məhdudlaşdırılmış bir formasıdır.

Ekoloji hüquq pozuntusu və ekoloji inzibati məsuliyyət anlayışları, əsas xüsusiyyətləri:

Ekoloji hüquq pozuntusu dedikdə, ətraf mühitə, onun ayrı-ayrı komponentlərinə – torpağa, suya, atmosfer havasına, fauna və floraya – zərər vuran, qanunla qadağan edilmiş hüquqazidd hərəkət və ya hərəkətsizlik başa düşülür. Bu anlayışın düzgün müəyyənləşdirilməsi hüquq pozuntusunu digər növ davranışlardan fərqləndirmək üçün əsasdır.

"Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsindəki anlayışlar çərçivəsindən çıxış etdikdə, ekoloji hüquq pozuntusu ətraf mühit üzərində müvafiq qanunvericiliklə müəyyən edilmiş tələbləri pozan, ekoloji normativlərə, standartlara uyğun gəlməyən hər hansı hərəkət və ya hərəkətsizlik kimi səciyyələndirilir [4].

Ekoloji hüquq pozuntularına görə inzibati məsuliyyət ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan səmərəli istifadə olunması və ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində müəyyən edilmiş qaydaları pozan, lakin cinayət tərkibi yaratmayan hərəkət və ya hərəkətsizliyə (ekoloji inzibati xətaya) görə səlahiyyətli dövlət orqanları tərəfindən təqsirkar şəxslərə qarşı inzibati tənbeh tədbirlərinin tətbiqini nəzərdə tutan hüquqi məsuliyyət növüdür.

Ekoloji hüquq pozuntuları sahəsində inzibati məsuliyyət yalnız konkret inzibati xəta tərkibini ehtiva edən əməlin törədilməsinə görə yaranır və aşağıdakı xüsusiyyətlərə malikdir:

- ekoloji hüquq pozuntusu tərkibinin obyekti yerin təki, torpaq, su, meşə, atmosfer havası, heyvanlar və bitkilər aləminin istifadəsi və mühafizəsi sahəsində formalaşan ictimai münasibətlərin məcmusu hesab olunur;

- ekoloji hüquq pozuntularına görə inzibati məsuliyyət tədbirləri kimi əksərən cərimə, bəzi hallarda isə inzibati xətanın törədilməsində

alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetlər müsadirə edilməklə və ya müsadirə edilməməklə fiziki şəxsə verilmiş xüsusi hüququn məhdudlaşdırılması, inzibati həbs və əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində isə ölkə hüdudlarından inzibati qaydada çıxarma tədbirləri nəzərdə tutulur;

- inzibati məsuliyyət tətbiq etmək səlahiyyəti olan orqanların və vəzifəli şəxslərin siyahısı konkret müəyyən edilir və tədbirlər bu səlahiyyətlərə uyğun olaraq tətbiq edilir;

- şəxsə inzibati tənbehin tətbiq edilməsi həmin inzibati tənbehə səbəb olmuş öhdəliklərin yerinə yetirilməsindən şəxsi azad etmir (Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 31.5-ci maddəsi) [5].

"Ətraf mühitin mühafizəsi haqqında" Qanunun 71-ci maddəsinə əsasən, ətraf mühitin mühafizəsi sahəsində inzibati xətalar haqqında işlərə baxmaq, təqsirkarların inzibati və ya cinayət məsuliyyətinə cəlb edilməsi barədə materialları müvafiq orqanlara göndərmək Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hüquqlarına aid edilmişdir.

Məcəllənin 38.1-ci maddəsinə əsasən, ətraf mühitin qorunması qaydaları əleyhinə inzibati xətalara görə inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci bir il keçənədək verilə bilər. Burada qeyd edilməsi yerinə düşər ki, 25-ci fəslin adı "ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar" adlanmasına və həmin fəslə daxil olan inzibati xəta tərkibləri struktur baxımından fəslin adına uyğun olaraq üç qrupa ayrılmasına baxmayaraq Məcəllənin 38.1-ci maddəsində inzibati xətanın törədildiyi gündən ən geci bir il keçənədək inzibati tənbeh verilməsi qaydası müəyyən edilərkən yalnız "ətraf mühitin qorunması qaydaları" əleyhinə inzibati xətalar bura aid edilmişdir. Hüquqi müəyyənlik prinsipi nöqteyi-nəzərindən həmin maddədə fəslin adının tam yazılması, yaxud birillik müddət yalnız "ətraf mühitin qorunması qaydaları" əleyhinə inzibati xətalara aid edilirsə, bu tərkiblərin xüsusi göstərilməsi daha uyğun olardı.

Ekoloji hüquq pozuntularına görə inzibati məsuliyyətin subyektləri üç əsas kateqoriyaya bölünür: a) Fiziki şəxslər – on altı yaşına çatmış anlaqlı olan hər bir şəxs ekoloji inzibati xətaya görə məsuliyyət daşıya bilər. Bu kateqoriyaya vətəndaşlar, sahibkarlar, fermerlər, ev təsərrüfatı sahibləri və digər şəxslər daxildir. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də Azərbaycan ərazisində törətdikləri ekoloji hüquq pozuntularına görə ümumi qaydada məsuliyyət daşıyırlar; b) vəzifəli şəxslər – xüsusi kateqoriya kimi vəzifəli şəxslər ayrıca qeyd olunur. Bu kateqoriyadan olan subyektlərə daha ağır inzibati tənbehlər tətbiq edilir, çünki onlar ekoloji normativlərə riayət olunmasına nəzarət etmək öhdəliyini daşıyırlar. Müəssisə rəhbərləri, texniki nəzarət mütəxəssisləri və s. bu kateqoriyaya aiddir; c) hüquqi şəxslər – müəssisə, idarə, təşkilat, sahibkarlıq subyektləri – ekoloji inzibati məsuliyyətin xüsusi subyektləridir. Onlara tətbiq edilən cərimə məbləğləri fiziki şəxslərə nisbətən bir neçə dəfə yüksəkdir.

Ekoloji inzibati məsuliyyətin obyekti dedikdə, hüquq pozuntusu nəticəsində ziyan dəyən ictimai münasibətlər başa düşülür. Qanunvericiliyin təhlili nəticəsində aşağıdakı əsas obyekt qruplarını ayırmaq olar:

- torpağın mühafizəsi sahəsində yaranan münasibətlər – torpağın çirkləndirilməsi, məhv edilməsi, qanunsuz mənimsənilməsi;

- suların mühafizəsi sahəsində yaranan münasibətlər – su hövzələrinin çirkləndirilməsi, su istehlakı normalarının pozulması;

- atmosfer havasının mühafizəsi sahəsində yaranan münasibətlər – havanın çirkləndirilməsi, emissiya normativlərinin aşılması;

- meşələrin mühafizəsi sahəsində yaranan münasibətlər – qanunsuz ağac kəsimi, meşənin zədələnməsi, yanğın qaydalarının pozulması;

- heyvanların mühafizəsi sahəsində yaranan münasibətlər – qanunsuz ov, balıq tutma, nadir növlərin məhv edilməsi;

- xüsusi mühafizə olunan təbiət ərazilərinin mühafizəsi sahəsində yaranan münasibətlər – dövlət təbiət qoruqları, milli parklar, yasaqlıqlar daxilində törədilən pozuntular.

Beynəlxalq hüquqi çərçivə: Orxus Konvensiyası:

Müasir dövrdə ekoloji hüquq pozuntularına görə inzibati məsuliyyət institutunun inkişafı təkcə daxili qanunvericiliyin tələbi deyil, həm də beynəlxalq-hüquqi öhdəliklərin reallaşdırılması prosesidir. Bu sahədə ən mühüm beynəlxalq sənədlərdən biri Orxus Konvensiyasıdır.

Konvensiya (tam adı ilə "Ətraf mühit məsələlərinə dair informasiyanın əldə edilməsi, qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakı və ədalət mühakiməsinə müraciət haqqında" BMT Avropa İqtisadi Komissiyasının Konvensiyası) 1998-ci ildə qəbul edilmiş, 30 oktyabr 2001-ci ildə qüvvəyə minmişdir. Azərbaycan Respublikası Konvensiyaya 9 noyabr 1999-cu ildə qoşulmuşdur [6].

Konvensiya üç əsas sütun üzərində qurulmuşdur:

- Birinci istiqamət – informasiyanın əldə edilməsi hüququ: vətəndaşlar ətraf mühitin vəziyyəti barədə dövlət orqanlarından məlumat tələb edə bilər. Bu həm də o deməkdir ki, hansı ekoloji xətalara görə cərimə tətbiq edildiyi barədə nəzarət orqanlarının nəticələri ictimaiyyətə açıq olmalıdır;

- İkinci istiqamət – ictimaiyyətin iştirakı hüququ: ekoloji əhəmiyyət kəsb edən qərarların qəbulunda cəmiyyətin iştirakı təmin edilməlidir;

- Üçüncü istiqamət – ədalət mühakiməsinə müraciət hüququ: vətəndaşlar və qeyri-hökumət təşkilatları ekoloji qanun pozuntularına görə inzibati orqanlara şikayət edə, inzibati qərarları məhkəmədə mübahisələndirə bilər.

Konvensiyanın inzibati məsuliyyət mexanizminə əsas töhfəsi ondan ibarətdir ki, o, cəmiyyətin özünü nəzarət subyektinə çevirir. Ənənəvi anlayışda inzibati məsuliyyət tədbirləri yalnız dövlət orqanları tərəfindən tətbiq edirdisə, Konvensiya ictimai birliklərin müstəqil şəkildə pozuntu barədə məlumat verməsinə, inzibati icraatın gedişini izləməsinə, zəruri hallarda məhkəməyə müraciət etməsinə imkan yaradır.

Digər məsuliyyət növlərindən müqayisəli fərqləndirilməsi:

İnzibati məsuliyyəti cinayət məsuliyyətindən fərqləndirən əsas meyar hüquq pozuntusunun ictimai təhlükəlilik dərəcəsidir. Cinayət hüququnda ekoloji cinayətlər ağır nəticələrə – böyük zərərə, insan ölümünə, geniş ərazinin çirklənməsinə yol açan hallarda tətbiq edilir. İnzibati hüquqda isə belə ağır nəticələri olmayan, lakin ekoloji normativlərə zidd olan davranış inzibati xəta sayılır. Proses baxımından cinayət işi daha mürəkkəb, çoxmərhələli icraat tələb edir: istintaq, ittiham, məhkəmə baxışı. İnzibati məsuliyyət isə adətən daha operativ qaydada – inzibati protokolun tərtib edilməsi, müvafiq orqanın qərarı yolu ilə həyata keçirilir.

Mülki məsuliyyət ekoloji zərərin bilavasitə kompensasiyasına yönəlir. O, vurulan ziyanın tam ödənilməsi prinsipinə əsaslanır. İnzibati məsuliyyətin cəriməsi isə dövlət büdcəsinə köçürülür, zərər çəkmiş tərəfin kompensasiyasına xidmət etmir. Buna görə ekoloji hüquq pozuntularında adətən hər iki məsuliyyət növü paralel tətbiq edilir: inzibati cərimə və mülki kompensasiya.

İntizam məsuliyyəti əmək münasibətləri çərçivəsində tətbiq edilir: işçi öz əmək funksiyasını yerinə yetirərkən ekoloji xəta törətdikdə, işəgötürən ona əmək qanunvericiliyi ilə nəzərdə tutulan sanksiyalar tətbiq edə bilər. İnzibati məsuliyyət isə əmək münasibətlərindən asılı olmayan müstəqil məsuliyyət növüdür. Eyni hüquq pozuntusuna görə eyni vaxtda həm intizam, həm də inzibati məsuliyyət tətbiq edilə bilər.

Təkmilləşdirilmə istiqamətləri və nəticə:

Ekoloji inzibati məsuliyyətin effektiv tətbiqindəki ən mürəkkəb problemlərdən biri ekoloji zərərin isbatıdır. Torpağın, suyun, havanın çirklənmə dərəcəsini müəyyən etmək üçün bəzən bahalı laborator analizlər tələb olunur. Çirklənmənin mənbəyini, xüsusən diffuz çirklənmə hallarında, yəni çirklənmənin bir neçə mənbədən eyni anda yayılması zamanı dəqiq müəyyənləşdirmək çox vaxt çətin olur. Bu baxımdan ekoloji nəzarət orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, müasir monitorinq sistemlərinin tətbiqi zəruridir.

Digər müzakirə edilməli məsələlərdən biri inzibati xətalara görə tətbiq edilən cərimələrin vurulmuş zərərin miqdarına adekvatlıq dərəcəsidir. Belə ki, bəzən ekoloji xətalara görə nəzərdə tutulmuş cərimə məbləğləri hüquq pozuntusundan əldə edilən iqtisadi qazancdan xeyli az olur. Bu halda rasional iqtisadi hesablamaya görə, müəssisəyə cərimə ödəmək, ətraf mühiti çirkləndirməkdə davam etmək daha sərfəli görünə bilər, bu isə inzibati məsuliyyətin profilaktik funksiyasını tamamilə iflic edir. Cərimənin pozuntu nəticəsində əldə edilmiş mənfəətə, dəymiş ziyanın həcminə, müəssisənin dövriyyəsinə nisbətdə hesablanması sisteminə keçid müzakirə edilə bilər. Avropa İttifaqına üzv dövlətlərin bir çoxunda bu yanaşma tətbiq edilməkdədir.

Avropa İttifaqının 30 aprel 2004-cü il tarixli "Ətraf mühitə dəyən ziyanın qarşısının alınması və aradan qaldırılması ilə bağlı ekoloji məsuliyyət Direktivi" "çirkləndirən ödəyir" prinsipinin daha sərt formada tətbiq edilməsini nəzərdə tutur: sənəddə hüquqpozuntusu törədənin məşğul olduğu fəaliyyətdən kənarlaşdırılması, vurulmuş zərərin aradan qaldırılması və kompensasiya ödənilməsi öhdəlikləri ayrıca tənzimlənir [7]. Azərbaycanın Orxus Konvensiyasından doğan öhdəlikləri, xüsusən məhkəməyə müraciət hüququnun təmin edilməsi, ictimai birliklərin inzibati prosedurda fəal iştirakı, ekoloji məlumatların açıqlanması – bu standartlara doğru həlledici addımların atılmasını tələb edir.

Aparılan tədqiqatın nəticələri göstərir ki, ekoloji hüquq pozuntularına görə inzibati məsuliyyət Azərbaycan Respublikasının hüquq sisteminin müstəqil və əhəmiyyətli bir institutudur. Bu institut ekoloji qanunvericiliyin tələblərinə riayəti təmin edən mexanizm olmaqla yanaşı, həm də ətraf mühitin mühafizəsinə yönəlmiş dövlət siyasətinin preventiv aləti kimi çıxış edir. İnzibati məsuliyyətin praktiki effektivliyi yalnız təkmil qanunvericilik bazasından deyil, həmçinin nəzarət orqanlarının peşəkarlığından, ictimai nəzarətin güclülüyündən və ekoloji mədəniyyətin cəmiyyətdə formalaşma səviyyəsindən asılıdır.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Konstitusiyası [Elektron resurs] URL: https://e-qanun.az/framework/897

2. Илюшин А.В. Административная ответственность за нарушение законодательства о недрах: По материалам Сибирского федерального округа: Автореферат диссертации на соискание ученой степени кандидата юридических наук /А. В. Илюшин; Науч. рук. В. Ф. Волович. - Тюмень, 2008. с. 3.

3. Козлов Ю.М., Попова Л.Л. Административное право - М.: Юрист, 2000. - с.502

4. «Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikasının Qanunu [Elektron resurs] URL: https://e-qanun.az/framework/3852

5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi [Elektron resurs] URL: https://e-qanun.az/framework/46960#f25

6. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi portalı [Elektron resurs] URL: https://eco.gov.az/frq-content/plugins/pages_v1/entry/20190420145531_99302500.pdf

7. Avropa Birliyinin rəsmi portalı [Elektron resurs] URL: https://eur-lex.europa.eu/eli/dir/2004/35/oj/eng

Гамидли Фарман Фазаил оглу,
докторант кафедры трудового и экологического права Бакинского государственного университета по специальности “Право природных ресурсов; аграрное право; экологическое право”

АДМИНИСТРАТИВНАЯ ОТВЕТСТВЕННОСТЬ ЗА ЭКОЛОГИЧЕСКИЕ ПРАВОНАРУШЕНИЯ: ПРАВОВАЯ ПРИРОДА, ОСОБЕННОСТИ И НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ

РЕЗЮМЕ

В статье исследуется институт административной ответственности за экологические правонарушения в правовой системе Азербайджанской Республики. Рассматриваются понятие и правовая природа административной экологической ответственности, её субъекты, объекты и система санкций. Особое внимание уделяется разграничению административной ответственности от уголовной, гражданской и дисциплинарной ответственности, а также анализу пробелов в действующем законодательстве – в частности, проблеме правовой определённости в статье 38.1 Кодекса об административных проступках. В контексте международно-правовой базы раскрывается значение Орхусской конвенции и её влияние на механизм реализации административной ответственности посредством расширения круга субъектов общественного контроля. Делается вывод о необходимости совершенствования санкционного механизма с учётом принципа экономической эффективности и международных стандартов.

Hamidli Farman Fazail,
Doctoral student, “Natural Resources Law; Agricultural Law; Environmental Law” specialty, Department of Labor and Environmental Law, Baku State University

ADMINISTRATIVE LIABILITY FOR ENVIRONMENTAL OFFENCES: LEGAL NATURE, FEATURES AND REFORM DIRECTIONS

SUMMARY

This article examines the institution of administrative liability for environmental law violations within the legal system of the Republic of Azerbaijan. The study analyses the concept and legal nature of administrative environmental liability, its subjects, objects, and sanction system. Particular attention is paid to distinguishing administrative liability from criminal, civil, and disciplinary liability, as well as to identifying legislative gaps - notably the legal certainty problem arising from Article 38.1 of the Code of Administrative Offences. Within the international legal framework, the significance of the Aarhus Convention and its influence on the administrative liability mechanism through the broadening of public oversight are examined. The article concludes that the sanction mechanism requires reform in line with the principle of economic effectiveness and applicable international standards.

Redaksiyaya daxilolma tarixi: 07.06.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 22.06.2026
Çapa qəbul olunma tarixi: 22.06.2026